# ŞUŞA XALQIMIZIN QEYRƏT RƏMZİDİR

**Xalqımız ötən əsrlərdə dəfələrlə yadelli işğalçıların hücumuna məruz qalmışdır. Axırıncı dəfə 1988-ci ildən başlayaraq mənfur qonşularımız öz havadarlarının köməkliyi ilə insanları Qərbi Azərbaycandan əzəli-əbədi torpaqlarından didərgin saldılar. Bununla kifayətlənməyən azğın düşmən yenə də bəzi ermənipərəst ölkələrin birbaşa dəstəyi ilə Azərbaycanımızın dilbər guşələrindən olan Qarabağda bəşər tarixində görünməmiş vəhşiliklər törətdilər. İnsani hisslərdən tamamilə uzaq olan ermənilər Xocalıda, Şuşada, Daşaltıda, bir sözlə, hər yerdə soyqırımlar törədərək yüzlərlə insanı vəhşicəsinə qətlə yetirdilər.**

Həmin zamanlarda düşmənin sürətlə ərazilərimizi işğal etməsinə əsas səbəb xarici qüvvələrin ermənilərə arxa durması, eyni zamanda respublikamızda hakimiyyət uğrunda gedən daxili çəkişmələr oldu.

8 may 1992-ci ildə Şuşanın işğal olunması xalqımızı həddindən artıq sarsıtmışdı. Çünki Şuşa Azərbaycanın mədəniyyət beşiyi, Qarabağın mirvarisi və üzük qaşı olmuşdur. Burada milli-mənəvi dəyərlərimizi bütün dünyaya çatdıran dahi şəxsiyyətlər yetişmişdir. Bu gözəllik məskəninin havası, suyu, iqlimi görkəmli şəxsiyyətlərin yetişməsi üçün bir stimul verir, hələ sovetlər birliyi dövründə dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə daim Şuşada mədəni-kütləvi tədbirlər keçirilirdi.

Dahi şəxsiyyət demişdir: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir". Digər bir çıxışında isə ulu öndər demişdir ki: "O gün olacaqdır ki, Novruz bayramını bir dəfə Şuşada keçirəcəyik. O biri il Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Zəngilanda, Cəbrayılda, Qubadlıda. Əminəm ki, belə də olacaqdır". Təsadüfi deyil ki, 2021-ci ildə Müzəffər Ali Baş Komandan Novruz tonqalını Şuşada Cıdır düzündə yandırdı.

İşğaldan sonra vəhşi erməni vandalları tarixi abidələri, məscidləri, dahi şəxsiyyətlərin heykəllərini bərbad günə qoymuşdular. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarından birində demişdir ki, sanki buradan vəhşi bir qəbilə keçmiş, hər tərəfi viran qoymuşdur. Ermənilər 30 ilə yaxın müddətdə burada heç bir abadlıq-quruculuq işləri aparmamışlar. Müzəffər Azərbaycan ordusuna təslim olanda isə şəhərdə bütün kommunikasiya sistemlərini darmadağın etmişdilər.

44 günlük Vətən müharibəsinin hər günü qələbə xəbərləri ilə xalqımızın yaddaşına həkk olunmuşdur. Şuşanın işğaldan azad olunması isə kiçikdən böyüyə hər kəsə sevinc göz yaşları axıtdırdı. Şuşa coğrafi cəhətdən elə yerdədir ki, düşmən ağlına gətirməzdi ki, Azərbaycan əsgəri nə vaxtsa bu şəhərə daxil olsun. Şuşanın azad olunmasına sanki bir möcüzə kimi baxırdılar. Bu gün bütün dünya cəsur Azərbaycan əsgərlərinin Şuşanın azad olunması uğrunda göstərdikləri döyüş nümunələrindən, igidliklərindən, yüksək peşəkarlığından danışır.




Bu müqəddəs şəhər azad olunanadək ermənilər öz orduları haqqında miflər uydururdular. Ancaq tarixi qələbə bütün bu mifləri alt-üst etdi. Cıdır düzündə təlxək Paşinyanın başının dəstəsi ilə rəqs etməsi, onun sərsəm hərəkətləri hər kəsi hədsiz qıcıqlandırırdı.

Şuşa uğrunda gedən döyüşlərdə çoxlu sayda real hadisələr bu gün dillər əzbəri olmuşdur. Avtomat silahı ilə düşmən tankının üstünə gedərək məhv edən və ya hərbi qənimət kimi ələ keçirən Azərbaycan əsgəri şanlı ordumuzun nəyə qadir olduğunun möhürünü vurdu. Bu cür cəsarət, igidlik, qorxmazlıq, vətəninə, eləcə də Ali Baş Komandanına sadiqlik yalnız Azərbaycan xalqına məxsusdur.

2020-ci il noyabr ayının 8-də Şuşanın işğaldan azad olunmasını Qalib Ordunun Ali Baş Komandanı İlham Əliyevin dilindən eşitməsini bütün şəhər, qəsəbə və digər yaşayış məntəqələrində yaşayan insanlar böyük coşqu ilə qeyd etdilər. Qurbanlar kəsildi, əhalinin sevincinin həddi-hüdudu olmadı.

Doğrusu, alınmaz qala olan Şuşanın işğaldan azad olunmasını insanlar mümkünsüz bir hal sayırdılar. Dövlətimizin başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın qurucusu və memarı dahi şəxsiyyət Heydər Əliyevin vəsiyyəti reallaşdı. Üçrəngli Azərbaycan bayrağı Şuşada dalğalanmağa başladı. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə şəhərdə dərhal quruculuq, abadlıq, tikinti işlərinə start verildi. İrimiqyaslı infrastruktur layihələri hazırda uğurla davam etdirilir.

Ali Baş Komandanın şəhərə dəfələrlə səfər etməsi bir daha dövlətimiz tərəfindən Şuşaya diqqət və qayğının böyük olduğunu göstərir. Çox qısa zaman kəsiyində tarixi zəfər yolunun çəkilişi də reallaşdı. Azərbaycanın görkəmli şairi Molla Pənah Vaqifin ev muzeyinin və məqbərəsinin bərpası, məscidlərin əsaslı təmiri və yenidən qurulması, görkəmli şəxsiyyətlərin abidələrinin, Üzeyir Hacıbəyovun büstünün qoyulması, şəhərin su təsərrüfatının bərpası, mədəniyyət abidələrinin, təhsil müəssisələrinin yenidən qurulması, şəhərin simasını gündən-günə dəyişir. 7 noyabr 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva Füzuli rayonunda tarixi zəfər yolunun açılışını etdilər.

Dövlətimizin başçısı İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ailə üzvləri ilə birlikdə Şuşaya növbəti səfəri hər kəsə böyük qürur yaşatdı.

Dövlət başçısı çıxışlarının birində demişdir: "28 il yarım işğal altında olan Şuşa azad edildi. Şuşa indi azaddır. Biz Şuşaya qayıtmışıq. Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı qələbəmizin, zəfərimizin günüdür".

2022-ci ilin yanvar ayında Prezidentin müvafiq sərəncamı ilə 2022-ci il "Şuşa ili" elan olundu. Hər kəs inanır ki, bu il Şuşa daha da müasirləşəcək, gözəlləşəcək, tezliklə yerli və xarici turistlərin sevimli məkanına çevriləcəkdir. Bu gözəl məkanın əsl sahiblərinin öz ata-baba yurdlarına qayıtmasına az qalır. Tezliklə bu qayıdış reallaşacaqdır.

Şuşa xalqımızın qeyrət rəmzidir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**